World Vision
GEORGIA

# NİKO
# VƏ
# VİRUS





# Niko və Virus

Erkən yaşda olan uşaqlar üçün hekayə.

Müəllif:
**Mariam Xvadaqiani**
Neyropsixoloq, Psy.M.

Məsləhətçilər:
**Tsira Barkaia —** World Vision Gürcüstan Erkən yaşda olan uşaqların inkişafı proqramının koordinatoru, psixoloq, Erkən təhsil və İnklüziv təhsil ixtisasçısı, Mphil SNE
**Teona Navdaraşvili** — World Vision Gürcüstan fondlarının axtarışı və rabitə meneceri
**Tinatin Antidze —** Komunikasiya, dil və nitq terapevti

Rəssam-illüstrator:
**Tinatin Antidze**

Dizayner və quruluşçu:
**Qvantsa Maxatadze**

World Vision
GEORGIA

Niko və Virus haqqında hekayə COVİD 19 Pandemiyasından yaranan böhran zamanı, Gürcüstan World Vision Erkən yaşda olan uşaqların inkişafı proqramı daxilində 8 yaşınadək olan uşaqlar üçün yaradıldı.

2020

# Ən yaxşı nəticələr üçün məsləhətlər

- Hekayəni oxuyarkən uşağa proqnoz vermək imkanı verin. Məsələn: “Sənin fikrincə, Virus nə cavab verdi?” və ya “Sənin fikrincə, Virusun yuyulmuş əllərdən niyə xoşu gəlmir?”
- Əmin olun ki, bütün sözlər uşaqlar üçün aydındır. Yeni sözləri açıqlayın və izah edin.
- Yeni sözləri açıqladıqdan və izah etdikdən sonra, çalışın ki, uşaqla birlikdə yeni söz haqqında yeni hekayə düşünəsiniz.
- Uşağı həvəsləndirin, ailə üzvləri və özünüz, sizin haqqınızda hekayə, nağıl yaradın.
- Uşağı həvəsləndirin, boyama dəftərini boyasın. Siz də qoşulun.
- Uşaqla dialoq yaratmaq və müzakirə məqsədilə hekayədən istifadə edin.
- kitabın sonunda Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən işlənmiş əllərin düzgün yuyulması haqqında əyani vəsait verilmişdir, həmin hissəni kəsib evdə görünən yerə yapışdıra bilərsiniz.

Niko hayatda oynadıqdan sonra evə qaçdı və pəncərəyə tərəf yaxınlaşdı. Hayatda qalan dostlarına baxdı və əl eylədi. – Sabah yenidən oynayarıq! – Niko uşaqları səslədi.



Otağa tərəf çönmək istəyərkən, pəncərənin küncündə balaca, yaşıl, yumru bir şey gördü.



– Sən kimsən? – Niko soruşdu. Yaşıl şey o yana-bu yana baxdı və təəccüblə Nikoya baxdı.
– Kimsən? Bura haradan gəldin? – Niko sualı təkrar etdi.



– Mən Virusam, necə ki, əslində , mən hiss edilməz və görünməzəm. Məni yalnız xüsusi vasitə ilə görmək olar, onun adı mikroskopdur.



– Sən məni necə gördün? – Virus suala sualla cavab verdi.
– Bilmirəm... Mən səni görürəm. Burada, mənim otağımda nə istəyirsən?
– Niko maraqlandı.



– Səninlə həyətdən gəldim, sonra nə zaman ki,
sən pəncərəyə yaxınlaşdın, pəncərəyə atıldım. Biz
çoxuq və müxtəlif yerlərdə ola bilərik... Döşəmədə,
yelləncəkdə, qapının dəstəyində...







– Çoxsunuz?! – Niko taəccüblə soruşdu,
– Bütün viruslar sənin kimidirlər?

– Yox, biz müxtəlif ölçüdə və müxtəlif rəngdə oluruq. Bəzisi qırmızı və yumrudur, bəzisi yaşıl və uzun. Artıq dediyim kimi, bu cür balaca organizmi insanın gözü yalnız mikroskopla görür. Virus Nikoya izah etdi.






– Olar, sənə əllə toxunum? – Niko yaşıl virusdan soruşdu.



– Yox , mən virusam, viruslu əlini ağzına və ya burnuna yaxın aparsan , xəstələnə bilərsən, – Virus cavab verdi.



– Niyə xəstələnməliyəm?
– Niko təəccübləndi.

– Ona görə ki, əgər insanın əlinə mikrob düşərsə, xəstələnə bilər. Məsələn hərarəti yüksələ bilər, öskürə bilər və ya qarnı ağrıya bilər. – Virus izah etdi.




– Aaaa ... Bax, nəyə görə anam əllərini yu, əlini ağzına alma deyir, – Niko dilləndi, – Yəni anam məni virusdan və xəstələnməkdən qoruyur.



– Sakit dur, sakit, əlləri yumağı yadıma salma! – Virus birdən qışqırdı. – Sabunu sevmirəm. Nə zaman ki, insanlar əllərini sabunla yuyurlar biz viruslar uzaq qaçırıq.

Birdən Niko gözlərini yumdu, qıyğacı gülümsündü və Virusa dedi:
– İstəyirsən, səninlə qaçma-tutma oynayım?



– Qaçma-tutma? O nədir elə? – Virus soruşdu.

– İndi sənə göstərərəm, – Niko cavab verdi və hamama qaçdı.kranı açdı, sabunu ovcuna və barmaqları arasına çəkdi, biləklərini də köpükləndirdi və su ilə yudu. Sonra isə əllərini dəsmalla quruladı və xoşbəxt halda otağa qayıtdı.











Bax, qaçma – tutma nə deməkdir, – Niko dedi və əllərini yuxarı qaldırdı.



Virus Nikonun əllərinin sabunla yuyulduğunu görərkən, – Oh, yox! – qışqırdı və çox süratlə qaçdı. – yuyulmuş əlləri necə də sevmirəm. Bax, nə imiş qaça-tutma: Sən təmiz əllərinlə dalımca gəlirsən, mən isə qaçıram. İstəmirəm, başa düşdüm, başa düşdüm! Virus qışqırırdı və var gücü ilə qaçırdı.

Bu zaman ana otağa baxdı, – Niko, nə edirsən? – deyə o, soruşdu.

– Anacan, anacan Virusla qaçma-tutma oynayıram. Mən onun dalınca gedirəm, o isə qaçır. – Niko cavab verdi.



– Əgər Virus səndən qaçırsa, deməli, əllərini yaxşı yumusan. Gəl indi mən də əllərimi yuyum və ləzzətlə nahar edək. – ana gülümsəyərək dedi.

– Yaxşı, – Niko cavab verdi və çöndü. Virusla vidalaşmaq istədi, ancaq Virus heç yanda yox idi. – Yəqin artıq çox uzaqdadır – deyə Niko düşündü.



– Bu gündən etibarən viruslar biləcəklər ki, mənim yanıma gəlsələr qaçma-tutma oyunu oynamaqla çoxlu yüyürməli və uzaaaaaqlara qaçmalı olacaqlar. Sabah həyətə düşəndə, yuyulmuş əllərin gücünü dostlarıma da söyləyəcəyəm. Niko təmiz əllərinə baxdı, gülümsündü və otaqdan çıxdı.

World Health Organization

# Əllərimizi necə düzgün yumalıyıq

(Təlimat)

World Vision
GEORGIA

Əllərin yuyulması prosesi 40-60 saniyə ərzində davam edir

Bütün mikrobları yumağımız üçün və bunu necə etməyimiz üçün, xüsusi bir ardıcıllıq var:




əllərinizi su ilə isladın




əllərinizi bütün səthi örtərək kifayət qədər sabun tətbiq edin




ovcunuzu bir-birinə sürtün




sağ əlinizi sol əlinizin üstünə qoyun, barmaqlarınızın aralarını yaxşıca sürtün, sonra o biri əllərinizi də eyni qaydada , eyni hərəkətlərlə təkrar edin, barmaqlarınızı geniş açın, əlinizi  bir- birnə bir neçə dəfə sürtün.




barmaqların arasındakı boşluqları və dırnaqaltı boşluqları da ovcunuzla yaxşıca sabunlayın




Baş barmaqlarınızı ovcunuz-la dairəvi hərəkətlərlə sabunlayın




Barmaqlarınızın ucunu ovcunuzda sabunlayın




Müxtəlif hərəkətlərlə biləklərinizi sabunlayın




əllərinizi təmiz, bol axar su ilə yuyun




Əllərinizi quru (şəxsi) dəsmal ilə və ya birdəfəlik kağız salfetlə qurudun




İndi artıq sizin əlləriniz təmizdir




**Əllərin düzgün yuyulması təlimatı gürcü dilində Gürcüstan World Vision tərəfindən hazırlanmışdır.**


SABUNU
SABUNU

